# Qayıdış

**(sənədli hekayə)**

**Həyat yoldaşım ehtiyyatda olan mayor Ruhin Tağıyevə**

Payızıydı. Ağacların saralmış yarpaqları budağından üzülürdü. Külək bu yarpaqları hara gəldi çırpırdı...

Qatardan düşüb dərindən nəfəs dərdi. Ətrafa boylandı. Bir an öncə mənzil başına tez çatmaq, arzularının ünvanını görmək istəyirdi. İndi elə bil zaman dayanmışdı. Dayanmış zamanın içindən sıyrılıb çıxmaq çətin olacaqdı...

Hərbi hissənin qarşısında taksidən düşəndə bir anlıq duruxub, ətrafa diqqətlə göz gəzdirdi. Bu yerlər ona tanış gəlirdi. Bir də baxdı. Bir qədər aralıda iri gövdəli tut ağacı gördü. Bura gələndə komandir onlarla bu ağacın kölgəliyində söhbət eləmişdi. Onların istəyi bu ağacın kölgəliyində çiliklənmişdi.

Xəyalları onu 9 il əvvələ aparmışdı. 1992-ci il idi. 14 yaşı vardı. Çətin günlər idi. Məmləkətdə müharibə gedirdi. Torpaqlarımız işğal olunurdu. Axşamlar televizorda Qarabağın necə xarabalığa çevrilməsini, yaşlıların, qız-gəlinlərin, körpələrin göz yaşlarını, ah-naləsini görürdük.

Müharibədən əvvəl Xocalıda olmuşdu. Atası tikinti rəisi idi. Xocalıda yeni şəhər salırdılar. Onu da özü ilə aparmışdı. İki gün qalmışdı Xocalıda. Bir neçə yaşıdı ilə dostlaşmışdı. Seymur da Ziya da atasından məktub da göndərmişdi. Ruhin də onlara cavab yazmışdı. Həmin məktub uzun müddət atasının cibində gəzmişdi, ünvanına çatmamışdı... Müharibə başlamışdı.

Xocalı faciəsindən sonra rahatlığını itirmişdi. Seymuru, Ziyanı unuda bilmirdi...

Ayaqlarının altındakı xəzəlin xışıltısı onu xəyallardan ayırdı. Həmin hərbi hissə idi. Müəllimləri hər gün Vətənin müqəddəsliyindən, Vətən sevgisindən, vətənpərvərlikdən danışırdılar. Qəribə, baş açılmaz duyğularla baş-başa qalmışdı.

Bir fikir ona rahatlıq verməzdi: Əsgər olmaq! Qərarını yaxın dostlarına da demişdi. Bir az duruxmuşdular. Sonra onlar da Ruhinlə getmək istədiklərini demişdilər. And içmişdilər ki, bu haqda heç kimə bir kəlmə də deməsinlər. İndi dörd nəfəriydilər - Namiq, Anar, Hüseyn və Ruhin.

Səhər tezdən məktəb adı ilə evdən çıxanda anasını qucaqlayıb öpdü. "Anamdan bir dənədi", dedi çantasını götürərək cəld evdən çıxdı.

...Üçüncü dərsdən sonra məktəbin arxasında toplaşdılar. Çantalarını yaxınlıqdakı yarıuçuq binada gizlətdilər. Avtobusla Neftçaladan Salyana, oradan da cəbhə xəttinə yola düşdülər.

Yollar doğma ocaqlarından didərgin düşən, göz yaşları üzlərində cığır açan insanlarla dolu idi. Yolda pullarını toplayib əsgərlər üçün siqaret, corab aldılar.

Hərbi hissənin həyətində təsadüfən qonşuları Vaqif dayı ilə rastlaşdılar. Kişi uşaqları tanıdı:

- A bala, burada nə gəzirsiniz?

Uşaqlar evdən qaçdıqlarını, əsgər olmaq istədiklərini deyəndə kişi gülümsündü:

- Əsgər olmaq yaxşıdı. Ancaq evdəkiləri də fikirləşin. İndi evdəkilər bir-birinə dəyib. Evinizə qayıdın.

Nə qədər dil töküb yalvarsalar da onları hərbi hissədə xidmətə götürmədilər. "Hələ uşaqsınız, böyüyüb gələrsiniz. Sizin kimi oğullarla fəxr edirik. İndi evə qayıdın" dedilər.

Gətirdikləri kiçik sovqatı əsgərlərə verdilər. İki gün oralarda gəzib dolaşdılar. Əlləri hər yerdən üzülmüşdü. Burda qalmaları daha mümkünsüzüydü. "Alınmadı", - təəssüfləndilər. Bu çarəsiz təəssüfün sonu görünmürdü. "Qayıdacam. Mən bura qayıdacam"! - Ruhin pıçıldadı.

Evlərinə qayıtdılar.

Bilmədilər ki, atasının dostlarından biri yolda avtobusu saxladıb siqaret, corab alanda onları görüb. Rayona çatanda atasına deyib. Atası da onların arxasınca gəlib. Komandirlə görüşüb. Komandir də "Belə vətənpərvər oğullarla fəxr etməlisiniz" - deyərək atasına təşəkkür edib. Anası onu görüncə "Sən əsgər gedəndə də, gələndə də ayaqlarının altında qurban kəsəcəm, can bala"! pıçıldadı... Ruhin qətiyyətlə "Mən zabit olacağam"! - dedi.

İndi Ruhin 9 il əvvəl evdən qaçıb vuruşmaq üçün getdiyi hərbi hissəyə zabit kimi qayıtmışdı. Anası 4 il idi ki, dünyadan köçmüşdü. Astaca pıçıldadı "Mən sözümü tutdum, ana, sən isə..."

Hərbi hissənin nəzarət-buraxılış məntəqəsinə yaxınlaşırdı...

**Günay TAĞIYEVA**